# TAM ORTA (11 İLLİK) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ 15 MART 2026-CI İL TARİXİNDƏ KEÇİRİLƏN BURAXILIŞ İMTAHANINDA İSTİFADƏ EDİLƏN TAPŞIRIQLARIN İZAHI

## English

***Listen to the passage and answer questions 1 – 6.***

Alzheimer disease is different from forgetting. It is a condition that permanently affects the brain. Over time, the disease makes it harder to remember even basic skills, like how to get dressed. It usually affects people over 65 years old, like Emma Yang's grandmother. As Emma grew up with her grandmother, she saw how difficult it was for her granny not to remember her family members. Emma decided to develop an application to help her granny and people with Alzheimer disease.

While working on her application "Timeless" Emma faced some challenges. She read articles by Alzheimer's experts and reached out to Alzheimer's specialists in her area for help. That's how she met Dr. Melissa Kramps who gave Emma information about the disease. Doctor Melissa explained that socializing and looking at the photos of family members and friends would help patients. So, Emma decided to add photos of the family members with their names on it into the application. This would help her granny to be aware of the people around her and not completely lose her memory.

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) Over time, people with Alzheimer disease remember how to get dressed better.
B) Alzheimer disease usually affects people under 65, like Emma's grandmother.
C) Emma posted the photos of the family members with their names on the app.
D) Emma wrote articles about Alzheimer's specialists.
E) Alzheimer disease is quite similar to forgetting.

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnə, əsasən, düzgün fikri seçmək tələb olunur. Verilən fikirlərdən* ***"Emma wrote articles about Alzheimer's specialists"*** *fikri doğru deyil, çünki Emma Alsheymer xəstələri haqqında ekspertlər tərəfindən yazılmış məqalələri oxumuşdur.* ***"Over time, people with Alzheimer disease remember how to get dressed better."*** *doğru deyil, çünki Alsheymer xəstələri zaman keçdikcə daha da unutqan olur.* ***"Alzheimer disease usually affects people under 65, like Emma's grandmother."*** *fikri də doğru deyildir, çünki Alsheymer xəstəliyi əsasən 65 yaşdan yuxarı olan insanlara təsir edir.* ***"Alzheimer disease is quite similar to forgetting."*** *fikri də doğru deyil, çünki Alsheymer xəstəliyi unutqanlıqdan fərqlidir.* ***"Emma posted the photos of the family members with their names on the app"*** *fikri isə* ***doğru cavabdır,*** *çünki mətnə əsasən Emma ailə üzvlərinin şəkillərini adları ilə birgə aplikasiyaya yerləşdirdi.*

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*Emma … .*

1. explained that socializing would help patients
2. saw how difficult it was for her granny not to remember her family
3. grew up far from her grandmother with Alzheimer disease
4. reached out to Alzheimer's experts in her area for support

A) 2, 4  B) 1, 4  C) 3, 4  D) 1, 2  E) 1, 3

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş yarımçıq cümlə mətndə* ***"explained that socializing would help patients" (sosiallaşmanın xəstələrə kömək edəcəyini Emma deyil, həkim Meliza izah etmişdir), "grew up far from her grandmother with Alzheimer disease"*** *(Emma nənəsindən uzaqda deyil, onunla böyüyüb) mətnə əsasən yalnışdır və digər verilən iki fikir isə* ***"saw how difficult it was for her granny not to remember her family" (****Emma nənəsinin ailə üzvlərinin adlarını xatırlamamasının onun üçün necə ağır olduğunu gördü****), "reached out to Alzheimer's experts in her area for support"*** *(Emma yaxınlıqdakı Alsheymer mütəxəssislərinə kömək üçün müraciət edib) bəndləri cümləni tamamlayır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *1,3-cü bəndlər deyil, 2,4-cü bəndlərdir.*

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

The passage is mainly about … .

A) disadvantages of the application "Timeless"
B) several ways of improving memory
C) Emma's efforts to help Alzheimer patients
D) a condition that positively affects the brain
E) people with Alzheimer disease

**Alt-standart:** 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada mətndə əsasən nədən bəhs olunduğu soruşulur. Burada verilmiş* ***"disadvantages of the application "Timeless", "several ways of improving memory", "a condition that positively affects the brain"*** *və* ***"people with Alzheimer disease"*** *fikirləri barədə mətndə məlumat verilsə də, mətn əsasən "Emmanın Alsheymer xəstələrinə kömək etmə cəhdləri" haqqındadır. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı "Emma's efforts to help Alzheimer patients"*** *olan bənddir.*

***Fulfil the tasks number 4 – 6 in the "Answer sheets".***

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Write the correct answer to the question according to the passage.
*What happened to Emma while she was working on her application?*

**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Verilmiş suala* ***doğru cavab "Emma (she) faced some challenges" (Emma (O) çətinliklərlə üzləşdi.)*** *cümləsi ilə cavablandırılmalıdır.*

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Complete the sentence according to the passage.
*This would help her granny to be aware of the people around her and not … .*

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur. Bu natamam cümlə mətndə* ***"This would help her granny to be aware of the people around her and not completely lose her memory."*** *(Bu onun nənənəsinə ətrafdakı insanlardan xəbərdar olmağa və yaddaşını tamamilə itirməməyə kömək edəcək) kimi verilmişdir. Buna görə də, test tapşırığının* ***doğru cavabı "completely lose her memory"*** *fikridir.*

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Write one adjective from the passage that describes the word "*skills*".

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş* ***"skills"*** *ismini təsvir edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş* ***"Over time, the disease makes it harder to remember even basic skills, like how to get dressed"*** *cümləsinə əsasən, test tapşırığının* ***doğru cavabı "basic"*** *sifətidir.*

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Choose the correct option.
*We wanted the guests … us.*

A) to joining B) joined C) joining
D) join E) to join

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin şəxssiz formaları

**İzah**: *Bu test tapşırığında verilmiş cümləni feilin müvafiq forması ilə tamamlamaq tələb olunur.* ***"Want"*** *feilindən sonra mürəkkəb tamamlığın tərkibindəki məsdər* ***"to"*** *hissəciyi ilə işləndiyi üçün* ***"to joining, joined, joining və join"*** *seçimləri* ***doğru cavab*** deyil. ***Doğru cavab "to join"*** *feili olan bənddir.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Make up a sentence.
1. are 2. books 3. of
4. people 5. the life 6. in
7. very important

A) 5, 3, 4, 1, 7, 6, 2 B) 2, 1, 7, 6, 5, 3, 4
C) 1, 5, 3, 4, 7, 6, 2 D) 2, 1, 6, 5, 3, 4, 7
E) 1, 4, 7, 6, 5, 3, 2

**Alt-standart:** 5-4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
**Bölmə:** Cümlə düzəltmə

**İzah:** *Bu test tapşırığında verilmiş sözləri müvafiq ardıcıllıqla düzməklə cümlə qurmaq tələb olunur. İngilis dilinin söz sırasnı nəzərə alaraq, verilmiş sözləri doğru ardıcıllıqla düzərək,* ***"Books are very important in the life of people"*** *cümləsini qururuq. Test tapşırığının* ***doğru cavabı*** *2, 1, 7, 6, 5, 3, 4 olan bənddir.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Choose the correct option.
*The salesman had a lot of antique carpets and a month later … of … were sold.*

1. some, it
2. all, them
3. some, them
4. most, it

A) 2, 4 B) 1, 4 C) 1, 2 D) 1, 3 E) 2, 3

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Əvəzlik

**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə boşluğu müvafiq əvəzliklərlə tamamlamaq tələb olunur. Verilmiş cümlədə cümlənin xəbəri cəmdə olduğu və cəm ismi obyekt halda olan cəm əvəzliklə əvəzlənməsi tələb olunduğu üçün* ***"it"*** *əvəzliyi ilə verilən varianlar həm əvəzlik, həm də xəbər baxımından uyğun gəlmir.* ***Doğru cavab*** *cəm xəbər ilə işlənən əvəzliklərin verildiyi* ***"all, them"*** *və* ***"some, them"*** *olan bənddir.*

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Change the sentence into the Passive Voice.
*The director has announced the new rules.*
A) The new rules are announced by the director.
B) The director has been announced the new rules.
C) The new rules have been announced by the director.
D) The new rules has been announced by the director.
E) The director was announced the new rules.

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.
**Bölmə:** Məchul növ
**İzah:** *Bu test tapşırığında məlum növdə olan cümləni məchul növə çevirmək tələb olunur. '**The new rules are announced by the director'** cümləsi indiki sadə zamanda verildiyi üçün səhvdir. **"The director has been announced the new rule"** cümləsində mütbəda məlum növün mübtədası olduğu üçün səhvdir. **"The new rules has been announced by the director"** cümləsində isə zamanı və cümlə quruluşu doğru olsa da mübtəda xəbər uzlaşması pozulduğu üçün səhvdir. **"The director was announced the new rules"** cümləsi isə həm zaman, həm də quruluş baxımından səhvdir. **"The new rules have been announced by the director"** cümləsinin isə həm zamanı, həm də quruluşu doğru olduğundan testin **doğru cavabıdır**.*

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Choose the correct option.
*The little girl is pleased ... the blouse which was bought ... her.*
A) with, of B) with, for C) of, for
D) from, at E) at, with

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sözönü
**İzah**: *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış sözönüləri əlavə etməklə cümləni tamamlamaq tələb olunur. Verilən cümlədə **"to be pelased"** ifadəsi "**with**" sözönü ilə işləndiyi və ikinci tərəfdə tərcümə "**for**" sözönü tələb etdiyi (the blouse which was bought ... her.-onun üçün alınmış bluz) üçün **doğru cavab** "**with, for"** olan banddir.*

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Choose the correct option.
1. a cup of tea
2. a glasses of water
3. two kilo of sugar
4. a bar of chocolate

A) 1, 4 B) 3, 4 C) 1, 2 D) 2, 4 E) 2, 3

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** İsim
**İzah:** *Bu test tapşırığında sayılmayan isimlərlə numerativ sözlərin işlənməsi verilib. Numerativ sözlər sayılan isimlər olduğu üçün təkdə olarsa "a, an" artiklları ilə işlənməlidir, əvvəlində birdən böyük say olarsa, bu sözlər cəmdə olmaldır. Buna görə də "a glasses of", "two kilo of" ifadələri səhvdir. "A cup of" və " a bar of" olan bənd isə **doğru cavabdır**.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Choose the correct option.
*My daughter is very ... .*
A) capable B) most capable
C) as capable D) more capable
E) the most capable

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə:** Sifət
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sifətləri seçmək tələb olunur. Bildiyimiz kimi, cümlədə "**very**" zərfi sifətin adi dərəcədə olmasını tələb edir. **"as capable"** , **" most capable"** yanlış ifadələr olduğu, **"more capable"** sifətin müqayisə, **"the most capable"** sifətin üstünlük dərəcəsində olduğu üçün test tapşırığının **doğru cavabı** "**capable**" sifətinin qeyd olunduğu banddir.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Choose the correct option.
*Chinese is one of ... most ancient languages in ... world.*
A) a, the B) –, the C) the, a
D) the, the E) the, –

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Artikl
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq artikllarla tamamlamaq tələb olunur. Verilmiş cümlədə sifət üstünlük dərəcəsində **("the most ancient**") oduğu üçün və vahidlik bildirən isimlərlə **"the"** artikli işləndiyi üçün **("the world")** test tapşırığının **doğru cavabı "the, the"** artikllarının verildiyi banddir.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Choose the correct option.
*... people have a lot of good personal qualities.*
1. Kind
2. Gentle
3. Greedy
4. Rude

A) 2, 4 B) 2, 3 C) 1, 4 D) 1, 2 E) 3, 4

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə:** Sözün mənası
**İzah:** *Bu test tapşırığı teksik bazanı ölçmək üçün nəzərdə tutulub. Verilmiş cümlədə yaxşı fərdi kefiyyətləri olan insanları təsvir edən sifətlər tələb olnur. ( ... people have a lot of good personal qualities - .. insanların çoxlu yaxşı fərdi kefiyyətləri olur).* ***"Greedy" (acgöz), "rude" (kobud)*** *sözləri mənfi xüsusiyyətlər olduğu üçün yanlışdır.* ***"Kind"*** *(mərhəmətli) və "****Gentle****" (nəzakətli) sözləri test tapşırığının* ***doğru cavabıdır.***

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Choose the correct option.
*... was the train two hours late?*

A) Who B) Why C) Whose
D) What E) Which

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sual cümlələri
**İzah:** *Verilən test tapşırığında düzgün sual əvəzliyini müəyyən edib cümləni tamamlamaq tələb olunur. "...* ***was the train two hours late?" (****"... qatar iki saat gecikdi?"****)*** *cümləsi üçün who (kim), whose (kimin) what (nə), which (hansı) seçimləri məna baxımından səhvdir. Odur ki,* ***"Why was the train two hours late?"*** *(Qatar niyə iki saat gecikdi) cümləsinin* ***doğru cavabı "why"*** *sual əvəzliyi olan bəndir.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Choose the correct option.
*... all people stop fighting with one another, the world will be a much better place.*

A) Although B) Why C) When
D) However E) How

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Bağlayıcı
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. Verilmiş* ***"... all people stop fighting with one another, the world will be a much better place"*** *cümləsi üçün bəndlərdə verilən* ***"although"*** *(baxmayaraq ki),* ***"why"****(niyə),* ***"however" (****ancaq) və* ***"how"****(necə) bağlayıcıları məntiqi cəhətdən test tapşırığının doğru cavabı deyildir. Beləliklə, bu test tapşırığının* ***doğru cavabı "when" (****nə zaman ki) bağlayıcısı olan bənddir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Complete the sentence.
*I'll tell you ... .*

A) what did the other participant keep silence for
B) what they are doing here at the moment
C) how long will it take you to solve this problem
D) what time have they left in the hall
E) how many beaches are there in France

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır
**Bölmə**: Cümlə tamamlama
**İzah**: *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış cümləni tamamlamaq tələb olunur. Belə tapşırıqlarda verilən cümlələr formaca sualda ola bilməz. Ona görə də bəndlərdə verilmiş* ***"what did the other participant keep silence for", "how long will it take you to solve the problem" , "what time have they left" və "how many beaches are there in France"*** *cümlələr quruluşca sualda olduğu üçün yanlış cavablardır.* ***Doğru cavab*** *söz sırasının düzgün olduğu "****what they are doing here at the moment"*** *bəndidir.*

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Choose the pairs of words with opposite meanings.
1. to defend – to attack
2. to liberate – to free
3. to fail – to succeed
4. to reject – to refuse
5. to destroy – to build

A) 1, 4, 5 B) 1, 3, 5 C) 2, 4
D) 3, 4 E) 1, 2, 5

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə:** Leksika
**İzah:** *Bu test tapşırığında əks mənalı sözlər olan bəndi seçmək tələb olunur. Bəndlərdə verilmiş "****to liberate – to free", "to reject – to refuse****" sözləri sinonim olduqları üçün, düzgün cavab* ***"to defend– to attack"*** *(müdafiə etmək – hücum etmək),* ***"to fail – to succeed"*** *(uğursuz olmaq- uğur qazanmaq) və* ***"to destroy – to build"*** *(dağıtmaq- tikmək) olan olan bənddir.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Choose the correct option.

*I … lift the box as it was too heavy.*

A) couldn't B) ought C) hadn't to
D) wasn't able E) was able

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.

**Bölmə:** Feil. Modal feillər

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq modal feil ilə tamamlamaq tələb olunur. Bəndlərdə verilən* ***"wasn't able", "ought"*** *və* ***"was able"*** *modal feil kimi özündən sonra "****to****" hissəcikli məsdər tələb etdiyinə görə doğru cavab ola bilməz,* ***"hadn't to"*** *ifadəsi isə səhvdir, çünki have to modal feilinin inkarı özü ilə verilmir. "****couldn't****" modal feili həm qrammatik, həm də məntiqi cəhətdən uyğun gəldiyi üçün test tapşırığının* ***doğru cavabıdır****.*

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Choose the correct tense form.

*Yesterday Alex … my favourite vase.*

A) broken B) will break C) has broken
D) breaks E) broke

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Feilin zaman formaları

**İzah:** *Bu test tapşırığında feilin düzgün zaman formasını müəyyən etmək tələb olunur. Burada keçmiş sadə zaman tələb edən "****yesterday****" zərfi verilmişdir. Buna görə də test tapşırığın düzgün cavabı* ***"broke"*** *(break- broke-broken) işlənən bənddir.*

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Choose the correct option.

*… butter was used to prepare the cake.*

A) Few B) A few C) Many
D) A lot E) Much

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**Bölmə:** Kəmiyyət bildirən sözlər

**İzah:** *Bu test tapşırığında kəmiyyət bildirən doğru sözü tapmaq tələb olunur. Cümlədə verilmiş "****butter****" sözü sayılmayan isimdir. "****Many****" ,"****a few****"və"****few****" sözləri sayılan cəm isim tələb edir. "****A lot****" isə zərfdir və isimlə işlənmir. Ona görə də* ***doğru cavab*** *sayılmayan isimlərlə işlənən"****much****" sözüdür.*

***Read the passage and answer questions 23 – 30.***

1. Vincent van Gogh was a Dutch painter and one of the prominent artists of all time. He was the eldest of six children in his family and grew up in the Netherlands. Later, he worked in London and Paris, where he attended various art exhibitions. This developed his artistic talent greatly. He showed admiration for some artists like Rembrandt and Frans.

2. Van Gogh's artistic career began in 1880 and lasted only a decade. His artworks were inspired by social issues and mostly showed the struggles of the inhabitants. His understanding of painting was evolving rapidly. He wrote to his brother about his painting "Branches of an Almond Tree in Blossom" and explained how deeply he was touched by Japanese art. Van Gogh was very keen on showing darkness in a natural way without using the black colour. He painted "Café Terrace at Night" using only blue, green, and purple instead of black. In a letter to his brother Theo, the artist also shared his new way of painting with satisfaction.

3. Inspite of numerous artworks, he had a lot of troubles in finding a suitable place to exhibit them. His works were largely unknown when he was alive, but they gained immense popularity and broke sale records after his death.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Which statement is true according to the passage?

A) All of van Gogh's artworks were sold in his lifetime.
B) Vincent moved to the Netherlands later with his brother Theo.
C) Though Vincent drew many artworks, he had problems displaying them.
D) Vincent was the youngest child in his family.
E) Van Gogh wrote about his life in Japan to his family.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Mətnlə tanış olduqda görürük ki,* ***"All of van Gogh's artworks were sold in his lifetime.", "Vincent moved to the Netherlands later with his brother Theo." , "Vincent was the youngest child in his family*** *və* ***"Van Gogh wrote about his life in Japan to his family."*** *fikirlərində təhriflər var.* ***"Though Vincent drew many artworks, he had problems displaying them." (****Baxmayaraq ki, Vinsent çoxlu rəsm əsərləri çəkib, onları nümayiş etməkdə problemləri oldu****)*** *fikri mətndə öz əksini tapdığına görə, test tapşırığının* ***doğru cavabı*** *"****Though Vincent drew many artworks, he had problems displaying them.****" olan bənddir.*

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Complete the sentence according to the passage.

*In his letter to Theo, Vincent van Gogh ... .*

A) informed that he took part in many art exhibitions in London and Paris
B) showed his love to the other artists such as Rembrandt and Frans
C) wrote that just one colour was enough for him to paint
D) explained how he used different colours to express darkness
E) admitted that "Café Terrace at Night" was his best work

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümlənin düzgün sonluğunu müəyyən etmək tələb olunur. Verilmiş yarımçıq cümləni tamamlamaq üçün mətnin 2-ci abzasının son 2 cümləsinə nəzər yetirmək lazımdır:* ***"He painted "Café Terrace at Night" using only blue, green, and purple instead of black. In a letter to his brother Theo, the artist also shared his new way of painting with satisfaction." "Café Terrace at Night"*** *rəsmini çəkərkən qara rəng əvəzinə yalnız mavi, yaşıl və bənövşəyi rənglərdən istifadə edir və qardaşına yazdığı məktubunda öz yeni boyama üsulunu məmnuniyyətlə bildirir. Buradan aydın olur ki, test tapşırığının* ***doğru cavabı "explained how he used different colours to express darkness"*** *fikrinin qeyd olunduğu bənddir.*

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Choose the correct answer to the question according to the passage.

*What is typical for van Gogh's artistic career?*

1. He painted his artworks in ten years' time.
2. By using the black colour, he made wonderful drawings.
3. He created very few artworks in his lifetime.
4. His works mainly described the struggles of the residents.

A) 2, 3 B) 2, 4 C) 3, 4 D) 1, 2 E) 1, 4

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Verilmiş sualda* ***(What is typical for van Gogh's artistic career?)*** *Van Qoqun rəssamlıq karyerası üçün nəyin səciyyəvi olduğu soruşulur, bu barədə düzgün fikirləri seçmək tələb olunur. Mətnin 2-ci abzasında verilən 1-ci və 2-ci cümlələrindən bu sualın cavabını müəyyənləşdirmək mümkündür.* ***"Van Gogh's artistic career began in 1880 and lasted only a decade. His artworks were inspired by social issues and mostly showed the struggles of the inhabitants."*** *Bu cümlədən aydın olur ki, test tapşırığının* ***doğru cavabı "He painted his artworks in ten years' time"*** *(O, əsərlərini on il ərzində çəkmişdir. və* ***"His works mainly described the struggles of the residents."*** *(Onun əsərləri, əsasən, sakinlərin mübarizəsini təsvir edirdi) olan bənddir.*

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

The passage is mainly about ... .

A) a well-known artwork painted by van Gogh
B) prominent painters from the Netherlands
C) an outstanding Dutch artist of all time
D) a unique Japanese style of painting
E) the paintings inspired by social problems

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***"a well-known artwork painted by van Gogh", "prominent painters from the Netherlands", "a unique Japanese style of painting"*** *və* ***"the paintings inspired by social problems"*** *fikirləri mətndə verilsə də, mətnin əsas məzmununu təşkil etmir. Mətn, əsasən,* ***bütün dövlərin görkəmli Holland rəssamından*** *bəhs etdiyi üçün test tapşırığının* ***doğru cavabı "an outstanding Dutch artist of all time"*** *olan bənddir.*

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Which word from paragraph 2 best fits the following definition "*to motivate or encourage someone*"?

**Alt-standart:** 7- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada izahı verilmiş sözü 2-ci abzasda müəyyən edib yazmaq tələb olunur. İzahı verilən söz* ***to inspire" (həvəsləndirmək / ilham vermək)*** *feilidir.*

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Write the synonym of the word *"to improve"* from paragraph 1.

**Alt-standart:** 10-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***"to improve" (inkişaf etmək)*** *sözünün 1- ci abzasda sinonimini müəyyən edib yazmaq tələb olunur. Bu test tapşırığının* ***doğru cavabı "to develop" (inkişaf etmək)*** *sözüdür.*

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Complete the sentence by changing at least 2 words according to the passage.

*His works were largely unknown when he was alive, but they ... .*

A)) "gained (got, achieved, won) immense (great, huge, enormous, massive) popularity (fame) and broke sale records (were largely sold) after his death (after he died / after he passed away/ after he perished).

B) C) D) E)

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş "His works were largely unknown when he was alive, but they ... ." cümləsini* ***"gained (got, achieved, won) immense (great, huge, enormous, massive popularity (fame) and broke sale records (were largely sold) after his death. (after he died / after he passed away/ after he perished"*** *şəklində tamamlamaq mümkündür.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Answer the question by expressing your opinion. Write at least three sentences.

*Do you think visiting art galleries or exhibitions is important? Why or why not?*

**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*

**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

*In my opinion, going to art galleries or exhibitions is very important as you get the opportunity to see and enjoy the fascinating works of famous artists. Moreover, we can feel morally relaxed and explore the artist's inner world by having a closer look at them. Besides this, seeing the wonderful artworks may have a positive impact on those who want to become painters.*

# Azərbaycan dili

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Verilmiş cümlələr əsasında cədvəldəki uyğun fikirləri müəyyən edin.

**I** *Onlarla həll olunmamış məsələyə birgə baxış keçirilsə də, yenə də bir neçə işi yekunlaşdırmaq mümkün olmadı.*

**II** *Onlarca insanın gözü qabağında baş verən bu hadisə bir çox qəzetlərdə dəfələrlə işıqlandırılmışdı.*

| ***Nümunələrin hər ikisinə aiddir*** | ***Nümunələrin yalnız birinə aiddir*** |
|---|---|
| 1. Kökü omonim olan saydan yaranmış söz işlənmişdir.<br>2. Feili birləşmənin asılı tərəfində olan say var.<br>3. Rəqəmlə yazıla bilməyən say işlənmişdir. | 4. Neçə say işləndiyini dəqiq müəyyən etmək mümkün deyil.<br>5. Təyin vəzifəsində olan qeyri-müəyyən miqdar sayı tamamlığı izah edir.<br>6. Sayla aid olduğu isim arasında numerativ sözdən istifadə edilməmişdir. |

A) 3, 5, 6  B) 1, 3, 4, 6  C) 1, 2, 5
D) 1, 2, 4, 6  E) 2, 3, 4, 5

***Mövzu:*** Say
***Sinif:*** 5-6
***İzah:***1. Yalnız 1-ci cümlədə *birgə* sözünün kökünün ədatla omonimliyi var.
2. Hər iki cümlədə feili birləşmənin asılı tərəfində olan say var. Məsələn: 1-ci cümlədə *bir neçə işi yekunlaşdırmaq,* 2-ci cümlədə *onlarca insanın gözü qabağında baş verən.*
3. Hər iki cümlədəki sayların heç biri rəqəmlə yazıla bilmir.
4. Yalnız 1-ci cümlədəki *onlarla həll olunmamış* birləşməsindəki *onlarla* sözü həm say, həm də əvəzlik kimi düşünülə bilər.
5. Yalnız 2-ci cümlədə *bir çox* sayı *qəzetlərdə* tamamlığını təyin etmişdir.
6. 6-cı cümlədəki fikir isə hər iki cümləyə aiddir.
***Doğru cavab*:** 2, 3, 4, 5

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Frazeoloji birləşməni müəyyən edin.

A) yaxşılıq etmək  B) qapıdan çıxmaq
C) özündən çıxmaq  D) beşiyi yırğalamaq
E) kömək etmək

***Mövzu:*** Frazeoloji birləşmələr
***Sinif:*** 5
***İzah:*** *Özündən çıxmaq* ifadəsi frazeoloji birləşmədir.
***Doğru cavab*:** özündən çıxmaq

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Cümlələrdən birinin xəbəri məsdər tərkibi ilə ifadə edilmişdir:

A) Gəlişimizin məqsədi başına ağıl qoymaqdır.
B) Məbədə gəlməkdə niyyətləri dua etmək idi.
C) Yayın qızmar günlərində şəhərdə qalmaq heç kəsin ürəyincə deyildi.
D) Aləmşahbəyimin yeganə çıxış yolu uşaqlarını buradan uzaqlaşdırmaq idi.
E) İndi Mədinənin bacısının həyatdakı ən böyük arzusu oxumaq idi.

***Mövzu:*** Söz birləşmələri
***Sinif:*** 6-8
***İzah:*** *Gəlişimizin məqsədi başına ağıl qoymaqdır* cümləsində *başına ağıl qoymaq* ifadəsi frazeoloji birləşmədir.
*Məbədə gəlməkdə niyyətləri dua etmək idi* cümləsində *dua etmək* ifadəsi mürəkkəb feildir.
*Yayın qızmar günlərində şəhərdə qalmaq heç kəsin ürəyincə deyil idi* cümləsində *yayın qızmar günlərində şəhərdə qalmaq* ifadəsi məsdər tərkibi olsa da, cümlənin mübtədasıdır.
*Aləmşahbəyimin yeganə çıxış yolu uşaqlarını buradan uzaqlaşdırmaq idi* cümləsində *uşaqlarını buradan uzaqlaşdırmaq (idi)* ifadəsi məsdər tərkibidir və cümlənin xəbəridir.
*İndi Mədinənin bacısının həyatdakı ən böyük arzusu oxumaq idi* cümləsində xəbərin ifadə vasitəsi olan *oxumaq (idi)* sözü məsdərdir.

***Doğru cavab***: Aləmşahbəyimin yeganə çıxış yolu uşaqlarını buradan uzaqlaşdırmaq idi.

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

*"Gedib xaricdə təhsilini artırar, ..."* cümləsində nöqtələrin yerinə hansı cümlələr yazılsa, mürəkkəb cümlə alınar?

1. qayıdıb vətənində işləyər.
2. atası arzusuna çatar.
3. elə orada bir iş tapıb işləyər.
4. biliyi xalqına gərəkli olar.
5. savadı ilə hamını təəccübləndirər.

A) 2, 4 B) 4, 5 C) 3, 5 D) 1, 2 E) 1, 3

***Mövzu:*** Mürəkkəb cümlə
***Sinif:*** 5-9
***İzah:*** Nöqtələrin yerinə *qayıdıb vətənində işləyər, elə orada bir iş tapıb işləyər, savadı ilə hamını təəccübləndirər* ifadələri artırılsa, sadə cümlə alınar. Cümləyə *atası arzusuna çatar, biliyi xalqına gərəkli olar* ifadələri artırılsa, mürəkkəb cümlə yaranar.
***Doğru cavab***: 2, 4

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Cümlədə buraxılmış durğu işarələrinin düzgün işlənmə ardıcıllığını müəyyən edin.
*Ordu qaçqınlar əsirlər bir sözlə hər kəs bir-birinə dəyib.*

A) vergül, vergül, tire, vergül
B) vergül, vergül, vergül, tire
C) qoşa nöqtə, vergül, vergül, vergül
D) vergül, vergül, vergül, vergül
E) tire, vergül, tire, vergül

***Mövzu:*** Durğu işarələri
***Sinif:*** 5-11
***İzah:*** Durğu işarələri cümləyə bu ardıcıllıqla artırılar:
*Ordu, qaçqınlar, əsirlər – bir sözlə, hər kəs bir-birinə dəyib.*
***Doğru cavab***: vergül, vergül, tire, vergül

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

"*Fələk ömrümüzə saldı ayrılıq,*
*Getdin, gözəl, çox gözlədim, gəlmədin"* nümunəsinə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Feillər eyni zamanda, eyni şəkildə işlənmişdir.<br>2. Hal şəkilçisinin tələbi ilə söz kökündə saiti düşmüş isim tamamlıq vəzifəsindədir.<br>3. Müraciət bildirən söz isimləşmiş nitq hissəsi ilə ifadə olunmuşdur. | 4. Quruluşca düzəltmə olan feil əmr şəklində, I şəxsin təkindədir.<br>5. Kəmiyyət zərfi zərflik vəzifəsindədir.<br>6. İsmin eyni halında olan sözlərdən biri mübtəda vəzifəsində çıxış etmişdir. |

A) 1, 2, 6 B) 1, 3, 4 C) 1, 5, 6
D) 2, 3, 4, 5 E) 2, 3, 5, 6

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif: 5-9***
***İzah:*** *1-ci* cümlədəki feillər keçmiş zamanda, xəbər şəklindədir, fikir doğrudur. "Doğrudur" sütununda verildiyi üçün doğru cavab sayılır.
2-ci cümlədəki fikir yanlışdır, çünki söz kökünün saiti mənsubiyyət şəkilçisinin tələbi ilə düşmüşdür. "Doğrudur" sütununda verildiyi üçün yanlış cavab sayılır.
3-cü cümlədəki fikir doğrudur, çünki xitab isimləşmiş sifətlə ifadə olunub. "Doğrudur" sütununda verildiyi üçün doğru cavab sayılır.
4-cü cümlədəki fikir yanlışdır, çünki feil xəbər şəklindədir. "Yanlışdır" sütununda verildiyi üçün doğru cavab sayılır.
5-ci cümlədəki fikir doğrudur. "Yanlışdır" sütununda verildiyi üçün yanlış cavab sayılır.
6-cı cümlədəki fikir doğrudur, çünki *fələk* sözü cümlədə mübtəda, *gözəl* sözü isə xitabdır. "Yanlışdır" sütununda verildiyi üçün yanlış cavab sayılır.
***Doğru cavab***: 1, 3, 4

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Xəbəri icbar növdə olan hansı cümlələrin tərkibində hərəkətin subyekti və obyekti ***yoxdur***?

1. Həmişə həvəslə yazdırırlar.
2. Əlbəttə, yenə vaxtında dəyişdirməlisiniz.
3. Dünən yazdırdıqlarımız qovluqdadır.
4. Səhərə kimi kəndə daşıtmalıdırlar.
5. Yeni layihələri mütəxəssislərə hazırladın.

A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 2 D) 1, 4 E) 3, 4

***Mövzu:*** Feil
***Sinif:*** 5-7
***İzah:*** 1-ci cümlədə xəbər icbar növdə olan feillə ifadə olunub və cümlədə subyekt və obyekt yoxdur.
2-ci cümlədə icbar növdə feil işlənməmişdir.
3-cü cümlədə xəbərin ifadə vasitəsi isimdir.
4-cü cümlədə xəbər icbar növdə olan feillə ifadə olunub, cümlədə subyekt və obyekt yoxdur.
5-ci cümlədə xəbər icbar növdə olan feillə ifadə olunsa da, cümlədə subyekt yoxdur.
***Doğru cavab*:** 1, 4

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

*"Dünənki yarışın qalibi* ***Səlim*** *nə isə söyləyərək otaqdan çıxdı"* nümunəsi ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Feili birləşmənin işləndiyini əminliklə söyləmək olmaz.
2. Tünd-qara hərflərlə verilmiş söz sintaktik əlaqədə yalnız əsas tərəfdir.
3. Çıxışlıq hal şəkilçili söz tabelilik əlaqəsində asılı tərəfdir.
4. Haqqında danışılan cümlədən çıxarılarsa, ismi birləşmə uzlaşma əlaqəsində əsas tərəf olar.
5. Xəbər tamamlıq və zərfliklə sintaktik əlaqədədir.

A) 3, 4, 5 B) 1, 2, 3 C) 2, 3, 4
D) 1, 4, 5 E) 1, 2, 5

***Mövzu:*** Sintaktik əlaqələr
***Sinif:*** 6-8
***İzah:*** 1-ci cümlədəki fikir yanlışdır, çünki *nə isə söyləyərək* feili birləşmədir.
2-ci cümlədəki fikir doğrudur, çünki *Səlim* mübtədadır və mübtəda sintaktik əlaqədə yalnız əsas tərəf olur.
3-cü cümlədəki fikir doğrudur, çünki çıxışlıq halda olan *otaqdan* sözü yer zərfliyidir və xəbərlə sintaktik əlaqədə asılı tərəfdir.
4-cü cümlədəki fikir doğrudur, çünki *Səlim* mübtədası çıxarılarsa, *yarışın qalibi* birləşməsi mübtəda olar.
5-ci cümlədəki fikir yanlışdır, çünki cümlədə tamamlıq işlənməmişdir.
***Doğru cavab*:** 2, 3, 4

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Nümunədə üzərinə rəqəm yazılmış sözlərin fonetik xüsusiyyətinə əsasən uyğunluğu müəyyən edin.

I Yazılışı ilə deyilişi fərqlənmir.
II Səs və hərflərin sayı bərabər deyil.
III Tərkibində kar samit işlənməmişdir.

*Adı sənət[1] tariximizin ən parlaq[2] səhifələrində[3] yer alan, böyük[4] əməlləri olan şəxsiyyətlərdən[5] biri də Ələsgər Ələkbərovdur.*

A) I – 2; II – 4; III – 5 B) I – 1, 2; II – 4; III – 3
C) I – 3; II – 1, 5; III – 2 D) I – 1, 3; II – 5; III – 4
E) I – 4; II – 3, 5; III – 2

***Mövzu:*** Fonetika
***Sinif:*** 5
***İzah:*** Yazılışı ilə deyilişi fərqlənməyən sözlər *sənət* və *səhifələrində* sözləridir. Səs və hərflərin sayı bərabər olmayan söz *şəxsiyyətlərdən* sözüdür. Tərkibində kar samit işlənməyən söz *böyük* sözüdür.
***Doğru cavab*:** I – 1, 3; II – 5; III – 4

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

Hansı nümunədə altından xətt çəkilmiş söz həm xitab, həm
də mübtəda kimi düşünülə bilər?

A) Dostum, <u>Qabil</u>, səhərdən evdən çıxıb, amma geri qayıtmayıb.
B) <u>Aqil</u>, Səfər və Kərim səni axtarırdılar.
C) <u>Qədir</u>! Xahiş edirəm ki, mənim fikirlərimə hörmətlə yanaşasan.
D) Bilirmi ki, <u>kamil</u>, ağıllı oğlandır?
E) Əvvəlcədən deyim ki, <u>Sabir</u> hələ də tapşırıqları düzgün yerinə yetirməmişdir.

***Mövzu:*** Xitab
***Sinif:*** 8
***İzah:*** *Dostum, <u>Qabil</u>, səhərdən evdən çıxıb, amma geri qayıtmayıb; <u>Qədir</u>! Xahiş edirəm ki, mənim fikirlərimə hörmətlə yanaşasan* cümlələrində altından xətt çəkilmiş söz yalnız xitabdır.
*Bilirmi ki, <u>kamil</u>, ağıllı oğlandır* cümləsində altından xətt çəkilmiş söz təyindir.
*Əvvəlcədən deyim ki, <u>Sabir</u> hələ də tapşırıqları düzgün yerinə yetirməmişdir* cümləsində altından xətt çəkilmiş söz mübtədadır.
*<u>Aqil</u>, Səfər və Kərim səni axtarırdılar* cümləsində *Aqil* sözü həm həmcins mübtədalardan biri kimi, həm də xitab kimi düşünülə bilər.
***Doğru cavab*:** <u>Aqil</u>, Səfər və Kərim səni axtarırdılar.

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

## İntiqam alovu

İsrafil ağa Mollazal uşağı tayfasını hökumətin əli ilə Kəsəməndən başqa kəndə sürgün etdirəndən sonra qəlbində bir az ▲ *səngimiş* intiqam alovu günlər keçdikcə yenidən artmaqda idi. Bir tərəfdən də, tayfasının dəliqanlı cavanları atlarını Acıdərəyə çapmaq, Mollazal uşağı tayfasının yaşadığı evlərə hücum etmək üçün İsrafil ağadan icazə istəyirdilər. Lakin o, məğlubiyyətdən qorxur, cavanların güclə <u>ipini çəkirdi</u>.
İsrafil ağa bu günlərdə həmişəkindən çox fikirləşirdi: "Onları yerindən oynadıb buraya gətirməliyik. Qoy onlar bizim üstümüzə gəlsinlər. Onda onlar açıqda – düzdə, biz

daldada – səngərdə. O zaman bizim birimiz onların onuna güc gələr".
Mollazal uşağı tayfası sürgün ediləndən Kəsəməndə səssizlik idi. **1.** Lakin bir gecə güllə səsləri bu sakitliyi pozdu. Gün qalxan vaxt danışırdılar ki, bu atışma qəbiristanlıqda olub, Mollazal uşağı tayfasından olanların qəbirləri güllələnib.
Qəbirlərinin gülləyə tutulması xəbəri Acıdərədə Mollazal uşağı tayfasına çatanda onların arasında ■ *təlatüm* yarandı: çoxu atını yəhərsiz-yüyənsiz mindi, hətta qız-gəlinlərdən də yaraqlanıb döyüşə tələsənlər oldu. **2.** Bu tayfanın gəlib torpağına sığındığı kəndin camaatından da silaha sarılanlar oldu. Alhüseyn də dəlilik dərəcəsinə çatdı, dəstənin qabağında atını yola doğru səyirtdi.
**At ayaqları yeri döyəcləyirdi, toz-duman qalxmışdı.** Bu zaman tozun-dumanın içindən hamını yerində dondurub saxlayan heybətli bir səs, bir çağırış eşidildi:
– Dayanın!
**3.** Baş alıb gedənlər atlarının cilovunu çəkdilər, yerə endilər. Hamı atını yurdun hündür yerinə çıxmış ucaqamətli ananın – Gülnazın yanına sarı yedəklədi.
Gülnaz üzünü bu ərlərə tutdu:
– Balalarım, dünyada gözlərimlə od üfürmüşəm, kösöv qaraltmışam, çox ● *məşəqqətlərdən* keçmişəm. Axırda bu qənaətə gəlmişəm ki, səbir lazımdır. **4.** Düşmən bizi açıqdan-açığa güllə qabağına çağırır, tələyə çəkir. Qoyun qanlımızın qurduğu tələ boş qalsın! Düşmən acizliyini bizi yox, cansız daşları gülləyə tutmaqla sübut etdi. Bu bizim qələbəmizdir!
Araya sükut çökdü. Heç vaxt bir sözü iki olmayan Gülnaz ananın sözü ilə razılaşmaq onun doğmalarına çətin gəlirdi. Hamı Alhüseynə baxdı: bəlkə, o, Gülnaz ananı fikrindən döndərə. **5.** Alhüseyn fikirləşdi ki, anası haqlıdır, onları kəndə çağıran İsrafil ağadır. Kim bilir, onları hansı dağda, hansı dərədə qarşılayacaq.
Alhüseyn qətiyyətlə dedi:
– Ana, ölsəm də, çıxmaram sənin sözündən!
**Gülnaz qollarını oğlunun boynuna dolayıb onu qucaqladı.**
İsrafil ağanın ümidləri boşa çıxandan sonra qəfəsdəki pələngə dönmüşdü. Bir tərəfdən, (1) ................, digər tərəfdən isə, (2) ................... onu dəli edirdi.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Mətndə Gülnazın nitqi əsasında onunla bağlı hansı qənaətə gəlmək olar?
1. Çox əzablar görmüşdür.
2. Düşmənə münasibətdə soyuqqanlı olmağı məsləhət görür.
3. Düşməni onları didərgin salmaqda ittiham edir.
4. Uzaqgörənliklə vəziyyəti dəyərləndirir.
5. Düşmənlə barışıq niyyətindədir.

A) 2, 3, 4 B) 1, 3, 5 C) 3, 4, 5
D) 1, 2, 4 E) 1, 2, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** Gülnaz ananın nitqində *çox əzabalar gördüyünü, düşmənə münasibətdə səbirli olmağı məsləhət gördüyünü, həmçinin düşmənin hiyləsini uzaqgörənliklə anladığını* müşahidə etmək mümkündür. *Düşməni onları didərgin salmaqda ittiham edir* və *Düşmənlə barışıq niyyətindədir* fikirləri isə onun nitqində əksini tapmayıb.
***Doğru cavab***: 1, 2, 4

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məntiqi ardıcıllıq ***pozulmaz***?

A) 1, 5 B) 3, 5 C) 1, 3, 4
D) 1, 2, 4 E) 2, 3, 4

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** **1.** *Lakin bir gecə güllə səsləri bu sakitliyi pozdu.* **5.** *Alhüseyn fikirləşdi ki, anası haqlıdır, onları kəndə çağıran İsrafil ağadır* cümlələri mətndən çıxarılsa, məntiqi ardıcıllıq pozular.
**2.** *Bu tayfanın gəlib torpağına sığındığı kəndin camaatından da silaha sarılanlar oldu.* **3.** *Baş alıb gedənlər atlarının cilovunu çəkdilər, yerə endilər.* **4.** *Düşmən bizi açıqdan-açığa güllə qabağına çağırır, tələyə çəkir* cümlələrinin mətndən çıxarılması məntiqi ardıcıllığı pozmaz.
***Doğru cavab***: 2, 3, 4

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Hansı cümlədə altından xətt çəkilmiş birləşmənin kontekstə görə mənasına uyğun ifadə işlənmişdir?
1. Yaşlı adam atı çətinliklə cilovladı və damın altındakı dirəyə bağladı.
2. Uşağın vaxt ikən cilovunu bərk yığışdır, sonra gec olar! *(M.İbrahimov)*
3. Məryəm buradakı uşaqları güclə öz nəzarətində saxlaya bilirdi.
4. Öz qardaşın da olsa, başında qoz sındıracaq, onu da intizama dəvət etmək lazımdır. *(M.İbrahimov)*
5. Cavanlıqda ixtiyarı əldən verdiyi üçün yaş artdıqca lap acizləşmişdi.

A) 1, 4, 5 B) 1, 2, 3 C) 2, 3, 4
D) 2, 4, 5 E) 1, 3, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** 1-ci cümlədəki *cilovladı* sözü həqiqi mənadadır, kontekstdəki *ipini çəkmək* ifadəsinə uyğun deyil.
2-ci cümlədəki *cilovunu yığışdır* ifadəsi mətndəki mənaya uyğundur.
3-cü cümlədəki *öz nəzarətində saxlaya bilirdi* ifadəsi mətndəki mənaya uyğundur.
4-*cü* cümlədəki *intizama dəvət etmək* ifadəsi mətndəki mənaya uyğundur.
5-ci cümlədə mətndəki mənaya uyğun ifadə işlənməmişdir.
***Doğru cavab***: 2, 3, 4

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Mətnə əsasən uyğunluğu müəyyən edin.

1. Doğrudur
2. Yanlışdır
3. Ehtimaldır

a. Mollazal uşağı tayfası vaxtilə İsrafil ağaya qarşı çıxmışdır.
b. Mollazal uşağı tayfasının qadınları döyüşkəndir.
c. Sürgün edilənlərin yaşadığı kəndin camaatı onları rəğbətlə qarşılamışdır.
d. Hər iki tayfada sözükeçən adamlar var.
e. Mollazal uşağı tayfasının cavanları öldürülənlərin intiqamını almaq üçün tələsirlər.

A) 1 – a, b; 2 – d, e; 3 – c B) 1 – c, e; 2 – b; 3 – a, d
C) 1 – b, d; 2 – e; 3 – a, c D) 1 – a; 2 – b, c; 3 – d, e
E) 1 – c, d; 2 – b, e; 3 – a

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:*** *Mollazal uşağı tayfası vaxtilə İsrafil ağaya qarşı çıxmışdır* fikri ehtimaldır, çünki İsrafil ağanın Mollazal uşağı tayfasını sürgün etdirməsindən bunu ehtimal etmək olar.
*Mollazal uşağı tayfasının qadınları döyüşkəndir* fikri doğrudur, çünki qız-gəlin silahlanaraq intiqam almağa tələsir.
*Sürgün edilənlərin yaşadığı kəndin camaatı onları rəğbətlə qarşılamışdır* fikri ehtimaldır. Bunu kənd camaatının intiqam almaqda onlara dəstək olmasından ehtimal etmək mümkündür.
*Hər iki tayfada sözükeçən adamlar var* fikri doğrudur, çünki İsrafil ağanın tayfasında İsrafil ağa, Mollazal uşağı tayfasında Gülnaz ana sözükeçən insanlardır.
